**İpoteka kreditləri üzrə güzəştlərdən aşağıdakı şəxslərin istifadə etmək hüququ vardır:**

- **Gənc ailənin üzvü olan aşağıdakı şəxslər:**
  - Şəhid ailəsinin üzvü (əri/arvadı, övladları);
  - Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı (özü, əri/arvadı, övladları);
  - Azərbaycanın Milli Qəhrəmanı (özü, əri/arvadı, övladları);
  - Məcburi köçkün və ya ona bərabər tutulan şəxs;
  - Ən azı 3 il dövlət qulluğunda qulluq edən, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxs;
  - Ən azı 3 il dövlət ümumtəhsil müəssisəsində müəllim işləyən şəxs;
  - Fəlsəfə doktoru elmi dərəcəsi olan şəxs;
  - İdman sahəsində xüsusi xidmətləri olan şəxs (fəxri bədən tərbiyəsi və idman xadimi, ölkə miqyaslı yarışların qalibi (I yer), beynəlxalq miqyaslı yarışların mükafatçısı (I, II və ya III yer).

- **Elmlər doktoru elmi dərəcəsi olan şəxs;**
- **Ən azı 15 il dövlət qulluğunda qulluq edən şəxs, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxs;**
- **Ən azı 3 il hərbi xidmətdə olan (müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulardan başqa), həmçinin ehtiyata və istefaya buraxılmış Azərbaycan Respublikasının hərbi qulluqçuları**("Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 41.0.6-cı, 41.0.7-ci, 41.0.8-ci, 41.0.10-cu, 42.0.3-cü, 42.0.4-cü və 42.0.5-ci maddələrində nəzərdə tutulan hallarda ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçular istisna olmaqla);
- **Ən azı 3 il daxili işlər orqanlarında xidmət keçən xüsusi rütbəsi olan şəxs;**
- **Ən azı 3 il elmi vəzifədə işləyən elmi işçilər;**
- **Ən azı 15 il dövlət ümumi təhsil müəssisəsində müəllim işləyən şəxs.**

- **Qeyd:** Güzəştli ipoteka kreditindən istifadə etmək hüququ olan ailə və ya şəxs bu hüquqdan yalnız bir dəfə istifadə edə bilər.